

■ **Rauf Soltan**

## AY GÖZƏL QIZLAR

Ay nazlı gözəllər, ay gözəl qızlar,
Siz bu cavanların həyatısınız.
İkiniz bir yerdə Füzuli beyti,
Dördünüz bir yerdə bayatısınız.

Sizin qarşınızda bir qula dönüb,
Adamın müntəzir durmağı gəlir.
İpək saçınızı öpən küləyə,
Oğlanların yumruq vurmağı gəlir.

Günah nə sizdədir, nə subaylarda,
Yaradan gəncliyi fişəng yaradıb.
Ana təbiətdir məncə günahkar,
Sizi özü qədər qəşəng yaradıb.

Nə belə qəlbimi yandırırsınız,
Bir tonqal olmuşam həzindən həzin,
Allahın altında barmağınızı,
Nişan üzükləri yandıra sizin.

İstəyən də boldur, elçilər də bol,
Doğma bir ocaqdan getmək çətindir.
Sevməyə nə var ki asandır sevmək,
Gəlinlik, analıq etmək çətindir.

Ay nazlı gözəllər, ay gözəl qızlar,
Siz bu cavanların həyatısınız.
İkiniz bir yerdə Füzuli beyti,
Dördünüz bir yerdə bayatısınız.

## DÜNYADAN İSTƏYİM

Günəş alovlanan canım kimiydi,
Qırmızı lalələr qanım kimiydi,
Çəmən ətirlənmiş xanım kimiydi,
Belə sığal verən dağa nə idi.

Gözlərim doymurdu mavi üfüqdən,
Şehlər gül üstündə yanırdı dən-dən,
Başına tac qoyub zərrin şəfəqdən,
Şəlalə necə də şahanə idi.

Gördüm  arı qonub dizimə mənim,
Şirinlik qatıldı sözümə mənim,
İlıq yel əsirdi üzümə mənim,
Hər duyğum titrəyən bir nanə idi.

Çayların sinəsi şəffaf bir şüşə,
Su içib uzandım yamyaşıl döşə,
Tək mənə qalmışdı o boyda meşə,
Dünyadan istəyim daha nə idi.

Kövrək ürəyimi bir az tovladım,
Qüssəni yüz ağac kənar qovladım,
Ceyranın gözündən şeir “ovladım”,
Tüfəng götürməyim bəhanə idi.

## BİHUŞ EDİB

Baxdım kol dibində, üşəndim necə,
Sanki buza döndü sinəmdə ürək.
Gördüm bənövşənin düz böyründəcə
Bir ilan qıvrılıb yatıb ölü tək.

İlandan olsaydı yatmazdı belə,
Al günəş torpağı bərk qızdırıbdır.
Bənövşə ilanı öz ətri ilə,
Yəqin bihuş edib yatızdırıbdır.

## ANAMIN MƏKTUBUNA CAVAB

Baxıram, ürəyim, gözüm ağrıyır,
Qəlbinə nə qədər söz yığılıbdır.
Məktubda yazırsan:-  Dizim ağrıyır,
Guya həkim deyir duz yığılıbdır.

Bilirəm boylanıb gün batanacan,
Yollara baxırsan qəm səni didir.
Sən mənə qulaq as, qorxma, anacan,
Həkim düz tapmayıb azarın nədir.

Çoxdandır dizinə baş qoymuram mən,
Ayrılıq anları ağırdır, ana.
Duz yalan söhbətdir, dizini hərdən,
Başımın həsrəti ağrıdır, ana.

Ağ üzlə çıxıram üzünə sənin,
Darıxma, ömrünə xoş yellər əsər.
Gəlib baş qoyaram dizinə sənin-
Sızıltısı kəsər, ağrısı kəsər.

## DAŞ ATMA

Dalımca daş atma ömrün bu dəmi,
Sınıb çilik-çilik olmayacağam.
Qəfil zərbə almış bir vitrin kimi,
Küçəyə tökülüb qalmayacağam.

Əzəldən uçmaqdır arzum, diləyim,
Sürünmək insanın peşəsi deyil.
Minillik qayadır mənim kürəyim,
Adi bir pəncərə şüşəsi deyil.

Gülə bürünəcək hər bahar döşüm,
Dövrəmdə qartallar dinəcək yenə.
Daşdan ürküb qaçan kəklik gülüşüm,
Qayıdıb yuvaya dönəcək yenə.

Dağılar doğrunu örtən duman-çən,
İndidən yazığın gəlsin özünə.
Deyirəm daş atma bu qayaya sən,
Birdən cınqı qopub düşər gözünə.

Ayrı adam idin binadan, başdan,
Yolundan azdırdı kim səni axı,
Kişi qala hörər, ev tikər daşdan,
Dalıyca daş atmaz kimsənin axı.

Daş atma qayaya, ey ürəyi dar,
Hamının gözündə xəbis olarsan.
Daşın qaya ilə qohumluğu var.
Onlar barışarlar, sən pis olarsan.

## YANAN KİBRİT ÇÖPÜ

Tüstüyə ehtiyac duyuram hər dəm,
Dostlar qınamasın təbiətimi.
Hörmətlə baxıram yanan çöpə mən,
Odlayandan sonra siqaretimi.

İstəyir oduna fikir verəsən,
Ən gözəl çağıdır bəlkə bu çağı.
Niyə söndürmürəm çöpü görəsən,
Daha lazım deyil o mənə axı.

Titrəyən şöləsi kədərli, kövrək,
Duyana çox şeyi andıra bilər.
Vaxtında söndürüm bu çöpü gərək,
Yoxsa barmağımı yandıra bilər.

Fəqət söndürməyə tələsmirəm mən,
Başqa bir duyğudur ürəyimdəki.
Çöpün alov donu çıxır əynindən,
Büzüşür soyuqdan üşümüş təki.

Alışan ümiddi, odlanan arzu,
Eh, nə olur olsun, yanan böyükdür.
Demirəm əlimdə adi çöpdü bu,
Yanırsa çöp deyil, inan, böyükdür.

Bükülən belinə nəzər salın bir,
İndicə həyatı sona çatacaq.
Çöpü söndürməyə ürəyim gəlmir,
Kimsə yanan qəlbi söndürür ancaq.